# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin, o cümlədən gənclərin çağırışaqədərki hazırlıq və fiziki tərbiyə rəhbərlərinin, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin əməkhaqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 dekabr tarixli 3054 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış dövlət peşə təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 1 fevral tarixli 26 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 330, № 3, maddə 613, № 12 (II kitab), maddə 2741; 2019, № 9, maddə 1549) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı hissədə “660”, “595”, “530” rəqəmləri müvafiq olaraq “792”, “ 714”, “636” rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin aylıq vəzifə maaşlarının sxemi” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış baş ustaların aylıq vəzifə maaşlarının sxemi” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.4. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış istehsalat təlimi ustalarının aylıq vəzifə maaşlarının sxemi” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.5. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

1.6. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - “Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşlarının sxemi” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 yanvar 2022-ci il

№ 16

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 yanvar tarixli 16 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**1 nömrəli əlavə**

# Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin aylıq vəzifə maaşlarının

# SXEMİ

| Sıra №-si | Təhsili | Bir stavka dərs yükü 18 saat olmaqla, aylıq vəzifə maaşı (manatla) | | | | |
|---|---|---|---|---|---|---|
| | | pedaqoji staj 3 ilədək olduqda | pedaqoji staj 3 ildən 8 ilədək olduqda | pedaqoji staj 8 ildən 13 ilədək olduqda | pedaqoji staj 13 ildən 18 ilədək olduqda | pedaqoji staj 18 ildən çox olduqda |
| 1. | Ali təhsilli | 552 | 594 | 624 | 666 | 714 |
| 2. | Orta ixtisas təhsilli | 504 | 534 | 552 | 588 | 636 |

**Qeyd.** Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin aylıq vəzifə maaşlarına qrup rəhbərliyinə görə 50 manat əlavə ödənilir.

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 14 yanvar
tarixli 16 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**2 nömrəli əlavə**

## Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış baş ustaların aylıq vəzifə maaşlarının

## SXEMİ

| Sıra №-si | Təhsilin pillələri və pedaqoji staja qoyulan tələblər | Aylıq vəzifə maaşı (manatla) |
|---|---|---|
| 1. | Orta ixtisas təhsilli, ixtisas üzrə 3 ildən 8 ilədək əmək stajı | 522 |
| 2. | Ali ixtisas təhsilli, ixtisas üzrə 3 ilədək əmək stajı; orta ixtisas təhsilli, ixtisas üzrə 8 ildən 13 ilədək əmək stajı | 570 |
| 3. | Ali ixtisas təhsilli, ixtisas üzrə 3 ildən 8 ilədək əmək stajı; orta ixtisas təhsilli, ixtisas üzrə 13 ildən çox əmək stajı | 600 |
| 4. | Ali ixtisas təhsilli, ixtisas üzrə 8 ildən az olmayaraq əmək stajı | 636 |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 yanvar tarixli 16 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**3 nömrəli əlavə**

# Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış istehsalat təlimi ustalarının aylıq vəzifə maaşlarının

# SXEMİ

| Sıra №-si | Təhsilin pillələri və pedaqoji staja qoyulan tələblər | Aylıq vəzifə maaşı (manatla) |
|---|---|---|
| 1. | Ümumi orta təhsilli, sahə üzrə 3 ildən az olmayan əmək stajı; orta ixtisas təhsilli, əmək stajına tələb qoyulmadan | 474 |
| 2. | Ali ixtisas təhsilli, əmək stajına tələb qoyulmadan; orta ixtisas təhsilli, ixtisas üzrə 3 ildən 8 ilədək əmək stajı | 498 |
| 3. | Ali ixtisas təhsilli və ixtisas üzrə 3 il əmək stajı; orta ixtisas təhsilli, ixtisas üzrə 8 ildən 13 ilədək əmək stajı | 522 |
| 4. | Ali ixtisas təhsilli, ixtisas üzrə 3 ildən 8 ilədək əmək stajı; orta ixtisas təhsilli, ixtisas üzrə 13 ildən 18 ilədək əmək stajı | 540 |
| 5. | Ali ixtisas təhsilli, ixtisas üzrə 8 ildən az olmayaraq əmək stajı və ya usta vəzifəsində 5 ildən az olmayaraq əmək stajı; orta ixtisas təhsilli, 18 ildən az olmayaraq ixtisas üzrə əmək stajı | 552 |

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 14 yanvar
tarixli 16 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**4 nömrəli əlavə**

## Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin aylıq vəzifə maaşlarının

## SXEMİ

| Sıra №-si | Təhsilin pillələri və pedaqoji staja qoyulan tələblər | Aylıq vəzifə maaşı (manatla) |
|---|---|---|
| 1. | Xüsusi hazırlıq keçmiş, tam orta təhsilli, pedaqoji stajı ən azı 5 ilə qədər | 434 |
| 2. | Xüsusi hazırlıq keçmiş, tam orta təhsilli, pedaqoji stajı 5 ildən çox; orta ixtisas təhsilli, pedaqoji stajı 5 ilə qədər | 448 |
| 3. | Orta ixtisas təhsilli, pedaqoji stajı 5 ildən 10 ilədək; orta hərbi təhsilli və ya ali təhsilli, pedaqoji stajı hər iki halda 5 ilə qədər | 462 |
| 4. | Ali təhsilli, pedaqoji stajı 5 ildən çox; orta ixtisas təhsilli, pedaqoji stajı 10 ildən çox; orta hərbi təhsilli, pedaqoji stajı 5 ildən çox; ali hərbi təhsilli, pedaqoji staja tələb qoyulmadan | 490 |

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 14 yanvar
tarixli 16 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**5 nömrəli əlavə**

# Dövlət peşə təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış fiziki tərbiyə rəhbərlərinin aylıq vəzifə maaşlarının

# SXEMİ

| Sıra №-si | Təhsilin pillələri və pedaqoji staja qoyulan tələblər | Aylıq vəzifə maaşı (manatla) |
|---|---|---|
| 1. | Ali təhsilli, pedaqoji staja tələb qoyulmadan; orta ixtisas təhsilli, 5 ildən az olmayaraq pedaqoji staj | 377 |
| 2. | Ali təhsilli, 3 ildən az olmayaraq pedaqoji staj; orta ixtisas təhsilli, 10 ildən az olmayaraq pedaqoji staj | 403 |
| 3. | Ali təhsilli, 3 ildən 8 ilədək pedaqoji staj; orta ixtisas təhsilli, idman üzrə fəxri adı olan; orta ixtisas təhsilli, 18 ildən az olmayaraq pedaqoji staj | 416 |
| 4. | Ali təhsilli, 8 ildən az olmayaraq pedaqoji staj | 429 |